# MasterFinish® RL 236

## Estetik beton səthin əldə olunması üçün qəlib ayırıcı vasitə

### MATERİALIN TƏQDİMATI

Hamar və ləkəsiz beton səthinin yaranmasına imkan verən, qəliblərin asanlıqla ayrılmasını təmin edən, xüsusi qatqılarla hazırlanan, istifadəyə hazır üzvi əsaslı qəlib ayırıcı vasitədir.

**MasterFinish® RL 236** beton səthin keyfiyyətini hamar, yekcins və deşiksiz olacaq şəkildə əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq üçün xüsusi olaraq hazırlanmışdır. Tikinti sahələri üçün xüsusi olaraq hazırlanıb.

### TƏTBİQ SAHƏSİ

**MasterFinish® RL 236** taxta, metal, poliester və faner qəliblər üzərinə tətbiq oluna bilər. Yalnız tikinti sahələrində tətbiq olunmaq üçün tövsiyə edilir. Prefabrik işlərində tətbiq üçün uyğun deyil.

### ÜSTÜNLÜKLƏRİ

- Qəlibin təmiz və asan şəkildə çıxarılmasını təmin edir;
- Daha hamar və xoş görünüşlü beton səthlərin əldə olunmasını təmin edir.
- Tətbiqi sadə və asandır;
- İstifadəyə hazır vəziyyətdə olub, su ilə qarışdırılmadan tətbiq olunur;
- Üzlük səthini aşındıran və qəlibin istismar müddətini azaldan, qəlibi paslandıran həlledici əsaslı qəlib yağlarından fərqli olaraq, qəlibi möhkəm saxlayır, pas yaranmasının qarşısını alır və istismar müddətini uzadır;
- Qəlibin maya dəyərini və işçi qüvvəsindən istifadə ilə bağlı xərcləri azaldır;
- Köhnə qəliblərdəki beton qırıntıların rahat şəkildə səthdən qoparılmasını və qəlibin asan şəkildə təmizlənməsini təmin edir;
- Beton səthlərindəki məsamələrin sayını azaldır;
- Ətraf mühit üçün zərərsizdir. Məhsulun tökülməsi halında 20 gün ərzində təbiətdə həll olunur;
- Sağlamlıq üçün zərər törətmir, tərkibində kanserogen maddə yoxdur, xüsusi allergik problemi olan şəxslər istisna olmaqla, dərini korlamaz. Əməyin mühafizəsi və təhlükəsizliyi baxımından uyğundur;
- Alışma temperaturu yüksək olduğundan məhsulun istifadəsi və saxlanması zamanı meydana gələ biləcək yanğın təhlükəsinin qarşını alır;
- Yapışqanlıq səviyyəsi zəif olduğundan, püskürtmə zamanı çətinlik törətmir və sərfiyyat az olur;
- Uçucu xüsusiyyəti olmadığından, yağlamanın təsiri ikinci tətbiq zamanı da özünü göstərir.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır. **“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır. Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP

# MasterFinish® RL 236

## Estetik beton səthin əldə olunması üçün qəlib ayırıcı vasitə

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| **Materialın mənşəyi** | Yağ əsaslı |
| Görünüşü | Sarı, kəhrəba rəngli |
| Xüsusi kütləsi (20˚C-də) | 0,98 - 1 kq/litr |
| Alışma temperaturu | >150˚C |

### QABLAŞDIRMA

210 litrlik çəllək
30 litrlik bidon

### TƏTBİQ QAYDASI

**MasterFinish® RL 236**, bütün qəlib növlərinin üzərinə püskürdücü, fırça ya da rulo ilə çəkilə bilən, istifadəyə hazır bir məhsuldur. **MasterFinish® RL 236** məhsulunun püskürdücü ilə tətbiqi, qənaətbəxş dozanı təmin etmək üçün diqqətlə həyata keçirilməlidir.
Püskürdücü ilə tətbiq, qəlibdən uyğun bir məsafədə (təxminən 50-100 sm) həyata keçirilməlidir. Beləcə, qəlib ayırıcı düzgün bir şəkildə, eyni səviyyəli üzlük təbəqəsi olaraq yayılır.
Püskürdücü ilə tətbiq zamanı, püskürdücü təzyiqinin müvafiq səviyyədə (2-4 bar) olması və xüsusilə, damcılamanın qarşını almaq üçün püskürdücü ucluğunun tamamilə sızmayan olması vacibdir.
**MasterFinish® RL 236** məhsulunun tətbiqindən sonra yarana biləcək çox nazik təbəqə, müvafiq qəlib ayırma üçün kifayət edir. Artıq hissə, kürəkcik ilə aradan qaldırılmalıdır. Əks halda, beton səthində yapışma və ləkələr meydana gələ bilər.

### UYĞUNLUQ

**MasterFinish® RL 236**, bütün qəlib növləri ilə istifadə oluna bilər.
**MasterFinish® RL 236** digər məhsullarla qarışdırılmamalıdır.

### SƏRFİYYAT

Qəliblərin səthinin vəziyyətindən və tətbiq formasından asılı olaraq, 1 litr məhsulu soyuq mövsümdə 25-40 $m^2$-lik, isti mövsümdə isə 30-60 $m^2$-lik səthə çəkmək mümkündür. Nəticənin daha qənaətbəxş olması üçün yağlamanın nazik üzlük təbəqəsi şəklində həyata keçirilməsi tövsiyə olunur. Məhsul normadan artıq istifadə olunduqda, sərfiyyatın artması ilə yanaşı beton səthinin tozlanmasına və ləkələnməsinə səbəb olur. Səthin üzəri barmaqla yoxlanılmaqla, tətbiq olunan məhsul miqdarının uyğun olub olmaması müəyyən oluna bilər. Artıq həcm kürəkcik vasitəsilə təmizlənməklə ən effektiv nəticəni əldə etmək mümkündür.

### SAXLAMA MÜDDƏTİ

Orijinal qablaşdırmada, normal saxlama şəraitində, ağzı acılmamış qablaşdırmada saxlama muddəti 2 il təşkil edir.

### SAXLAMA QAYDASI

Materialı üstu örtülü, günəş şüalarının birbaşa düşməsindən uzaq və temperatur dəyişkənliyindan qorunan yerlərdə saxlanılması məsləhət görülür.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP